AZƏRBAYCAN RESPUBLİKASININ HÜQUQİ AKTLARIN DÖVLƏT REYESTRİ

| | |
|---|---|
| Aktın növü | AZƏRBAYCAN RESPUBLİKASI DÖVLƏT GÖMRÜK KOMİTƏSİ KOLLEGİYASININ QƏRARI |
| Qəbul edildiyi tarix | 06.03.2019 |
| Qeydiyyat nömrəsi | 1000/02/001 |
| Adı | Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsi Kollegiyasının 2012-ci il 10 sentyabr tarixli 100/008 nömrəli qərarı ilə təsdiq edilmiş “Mərkəzi Gömrük Ekspertizası İdarəsi haqqında Əsasnamə”də dəyişiklik edilməsi barədə |
| Rəsmi dərc edildiyi mənbə | |
| Qüvvəyə minmə tarixi | 13.03.2019 |
| Azərbaycan Respublikasının Vahid hüquqi təsnifatı üzrə indeks kodu | 360.010.000 |
| Hüquqi Aktların Dövlət Reyestrinin qeydiyyat nömrəsi | 15201903062001 |
| Hüquqi aktın Hüquqi Aktların Dövlət Reyestrinə daxil edildiyi tarix | 12.03.2019 |

Azərbaycan Respublikasının Dövlət Gömrük Komitəsinin Kollegiyası “Azərbaycan Respublikasının Gömrük Məcəlləsində dəyişiklik edilməsi haqqında” Azərbaycan Respublikasının 2018-ci il 30 oktyabr tarixli 1294-VQD nömrəli Qanununun tətbiqi barədə Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 26 noyabr tarixli 743 nömrəli Sərəncamının 1.3-cü bəndinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikası Prezidentinin 2012-ci il 4 iyun tarixli 646 nömrəli Fərmanı ilə təsdiq edilmiş “Azərbaycan Respublikasının Dövlət Gömrük Komitəsi haqqında Əsasnamə”nin 5.11.6-cı yarımbəndini rəhbər tutaraq ,

**QƏRARA ALIR:**

1. Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsi Kollegiyasının 2012-ci il 10 sentyabr tarixli 100/008 nömrəli qərarı ilə təsdiq edilmiş “Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin Mərkəzi Gömrük Ekspertizası İdarəsi haqqında Əsasnamə ”yə aşağıdakı məzmunda 5.13.9-cu yarımbənd əlavə edilsin:

“5.13.9. ekspert qarşısında qoyulan suallar onun xüsusi biliyindən kənara çıxdıqda, yaxud təqdim olunan materiallar və sənədlər rəy verilməsi üçün yararsız olduqda və ya kifayət qədər olmadıqda, ekspert rəy verməkdən imtina edir.”.

2. Hüquqi Təminat İdarəsi (Sənan Muxtarov) bu Qərarın 3 gün müddətində Azərbaycan Respublikasının Hüquqi Aktların Dövlət Reyestrinə daxil edilməsi məqsədilə Azərbaycan Respublikasının Ədliyyə Nazirliyinə təqdim olunmasını təmin etsin.

3. Qərar aidiyyəti üzrə göndərilsin.

**Kollegiyanın sədri** **Səfər Mehdiyev**